**Hüseynova Aysel Ramiz qızı**

*AMEA-nın Memarlıq və İncəsənət İnstitutu doktorantı*



## "NAXÇIVAN BƏŞƏRİYYƏT BEŞİYİ"

Naxçıvan memarlığı... Heç zaman aktuallığını itirməyən memarlıq nümunələri ilə bol olan tarixi abidələr diyarı... Məni Naxçıvana elmi işim və Naxçıvana olan sevgim apardı. Təyyarədən endiyim an qarşıma Nizami Əliyev çıxdı. Onun isti gülərüzlə qarşılaması naxçıvanlıların böyük mədəniyyətə sahib olmalarının, gülərüz və mehriban olmalarının göstəricisi idi.

Səhər açıldı... Artıq tədqiqatlara start verildi. Tətqiqat üçün ilk istiqamət Ordubad qoruq şəhəri oldu. Dünyanın ən qədim insan məskənlərindən olan Ordubadda e.ə VII-I minilliklərdə insanların məskunlaşıb, daşlar üzərində yaratdıqları təsvirlərlə bol olan Gəmiqaya dağı, e.ə IV-II min illiyə aid Sabir-Dizə yaxınlığındakı Plovdağ yaşayış yerindən tapılmış maddi mədəniyyət nümunələri, yaşayış evləri və qəbir abidələri, e.ə II minilliyin sonu I minilliyin əvvəllərinə aid edilən qədim Sumbatan şəhərinin qalıqları, Xaraba Gilan ərazisində orta əsrlərə aid şəhər ərazisi və memarlıq abidələri, orta əsrlərdə şəhər kimi formalaşan Aza, Əylis kimi memarlıq abidələri ərazidə insanların çox qədim dövrlərindən məskunlaşmasının xəbərçisidir.

Naxçıvan tarixi keçmişi olan şəhərləri içərisində Ordubad şəhərsalma və memarlıq irsi ilə çox seçilir. Ordubadın qədim tarixi mərkəzi Ambarabas məhəlləsi və bu məhəllənin mərkəzində tikilən Ambarabas məscididir.

Ordubad şəhərində mərkəzi meydan bazarı, Qeysəriyyə, buzxana, hamam, meydan məscidləri, mərsəyələr mövcuddur ki, Cümə camı əsas dini mərkəz kimi mövqe və mahiyyəti ilə digər məhəllə məscidi özünə tabe etmişdir.

Ordubad yaşayış məskənlərin  görə dünyada ikinci, kiçik şəhərlərinə görə Avropada ikinci yerdədir.



**Ordubad buzxanası**



**Ordubad Came məscidi**



**Ordubad hamamı**



 

**Ordubad mədrəsəsi**

Ordubadın tarixi məhəllələrini gəzdikdən sonra Kəngərli rayonunun Qarabağlar türbəsi və Şahtaxtı hamamına getdik.

XII əsrin sonu XIII əsrin əvvəllərinə aid edilən Qarababağlar türbəsindən başqa burada qoşa minarə və onların arasında yerləşən dini binaların qalıqları da var idi. Elxani hökmdarı Hülaku xanın arvadı Quti xatının şərəfinə tikildiyi ehtimal edilir. Daş kürsülük üzərində on iki yarımsilindrik çıxıtılı türbəni 2003-cü ildə iranlılar, hal-hazırda yerli bərpaçılar tərəfindən bərpa edilir.

  

**Qarabağlar türbəsi**



Naxçıvan memarlıq məktəbinin nümunələri hər zaman diqqətləri özünə cəlb etməyi bacarıb. Bunlara Möminə Xatun türbəsi, Yusif Kuseyr oğlu türbəsi, Qarabağlar kimi dillər əzbəri olmuş abidələr misal ola bilər. Məşhur Azərbaycan memarı Əcəmi Naxçıvanının şah əsəri və Naxçıvan-Marağa memarlıq məktəbinin ən dəyərli abidələrindən biri olan Mömünə Xatun türbəsi Naxçıvan şəhərinin tarixi mərkəzində - Atabəylər Memarlıq Kompleksinin

tərkibində yerləşir. Möminə xatun türbəsi həmin kompleksdən dövrümüzə çatmış yeganə abidədir. Memarlıq tarixi tədqiqatçısı Ə. Ə. Ələsgərzadə baştağ çərçivəsinin üstündə abidənin tikilmə tarixinin "məhərrəm 582" (miladi 1186)–cı ilin yaz çağı olduğunu aydınlaşdırılmışdır.






Ümumi hündürlüyü 34 m olmuş, sonralar 8 m hündürlüyündə xarici örtüyü dağılmışdır. Türbə yeraltı (sərdabə) və yerüstü hissələrdən ibarət, sərdabə hissəsi planda 10 bucaqlıdır. Sərdabə orijinal quruluşlu olub, bədii baxımdan zəngin tərtibata malikdir. Mərkəzdə yerləşmiş sütundan onbucaqlının hər küncünə doğru bir tağ salınmışdır. Türbə sərdabəsindəki bu quruluş sonralar Qərbdə, qotika memarlığında tətbiq edilmişdir. Türbənin yerüstü hissəsi xaricdən 10 guşəli olub bütün tərəfləri kufi kitabələrlə haşiyələnmiş, daxildən isə dairəvidir. Türbə günbəzinin daxilində xəlifələrin adı yazılmış dörd dairəvi medalyon var.(2)







Bişmiş kərpicdən tikilmiş Mömünə Xatun Türbəsinin bucaqları çıxıntı şəklində, səthləri isə batıq formada həkk edilmişdir. Türbənin bucaqlarındakı çıxıntılar kufi xətti ilə işlənmiş kitabələrlə örtülmüşdür. Bu kitabələrin uzunluğu 500 m çatır. Türbə əvvəlki dövrlərə nisbətən mürəkkəb quruluşlu həndəsi ornamentlərlə kompozisiyaya daxil edilmiş firuzəyi kaşılarla daha da zənginləşdirilmişdir. Türbənin qərb hissəsi işlənmə xüsusiyyətinə görə fərqlənir. Burada səth iki yerə

bölünmüş, aşağı hissəsində giriş qapısı baştağ şəklində həkk edilmiş, yuxarı hissəsində isə ornamental bəzəklər verilmişdir. Memarın adını və abidənin inşa tarixini göstərən kitabələr baştağdan yuxarıda həkk edilmişdir. Türbənin sadə quruluşlu daxili səthi gəc ilə suvanmış, günbəzin iç tərəfinə 4 medalyondan ibarət bəzək vurulmuşdur. (3)



**Mömünə Xatun türbəsi**
Medalyon 1



**Mömünə Xatun türbəsi**
Medalyon 1a



**Mömünə Xatun türbəsi**
Medalyon 2



**Mömünə Xatun türbəsi**
Medalyon 2a



**Mömünə Xatun türbəsi**
Medalyon 3



**Mömünə Xatun türbəsi**
Medalyon 3a



**Mömünə Xatun türbəsi**
Medalyon 4



**Mömünə Xatun türbəsi**
Medalyon 4a

Kompozisiyaya, yetkinliyə, ayrıntılarının incə, zərif işlənməsinə və memarlıq üslubuna görə türbə orta əsrlər memarlıq sənətinin şah əsərlərindən sayılır. Abidə əzəmətli memarlıq zənginliyi ilə yanaşı, Azərbaycanın qədim tarixini, möhtəşəm dövlətçiliyini, yüksək səviyyəli mədəniyyətini, böyük memarlıq məktəbinə malik olduğunu göstərir. XIX əsrə aid rəsm əsərlərindən və fotoşəkillərdən görünür ki, Mömünə xatun türbəsinin yanında monumental tikililər, o cümlədən Cümə məscidi yerləşirdi.

Mömünə Xatun türbəsi hər zaman Naxçıvanın əsas simvolu sayılıb. Bu abidəni illər boyu məhv etmək arzusunda olanlar olub. 1953-cü ildə Mömünə Xatun türbəsində ruslar tərəfindən qazıntılar və axtarışlar aparılmışdır. Tədqiqatçı qadın türbədə qazıntı işləri aparmaq məqsədilə onun şərq hissəsini sökməyi fəhlələrə göstəriş verdi. 2 m-ə yaxın aparılan qazıntılardan sonra uzun bir taxta sandıq çıxarılmışdır. Bu sandığın içində qədim kitabələr, sənədlər aşkar edilmişdir. Burada üç ədəd karton üzərində çəkilmiş qadın rəsmi də aşkarlanmışdır. Daha

sonra həmin yer betonlandı. Oradan tapılan yazıların isə Sankt-Peterburqdakı Saltıkov Şedrin adını daşıyan kütləvi kitabxananın xüsusi fondlarında saxlanıldığı ehtimal edilir.




**Mömünə xatub türbəsi**
1. Silaktik tağ formasının qurulması və qrafiki analiz
2. Baş tağ formasının qurulması və qrafiki analiz




**Mömünə Xatun türbəsi:** Salaktik tağça

1973-cü ildə Naxçıvan Şəhər Soveti Rəhim xanın həyətindəki su kranını türbənin qərbində yerləşdirdikdən sonra, daim axan su türbənin bünövrəsinin süxurlarının sürüşməsinə, bu da öz növbəsində abidənin əyilməsinə səbəb oldu. [(1)]

1953-cü illərdə tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin dediyinə görə məqbərinin qapısı indiki yerdə, sərdabənin girişi isə qərbdən idi. 1905-ci ildə türbənin litoqrafik şəklində, yeraltı sərdabəyə giriş qərbdən, 1930-ci ilə aid şəkildə isə artıq şərqdəndir.





Bəzi tətqiqatçıların fikrinə görə sərdabədə Atabəy dövlətinin başçısı Şəmsəddin Eldəniz, onun həyat yoldaşı Mömünə Xatın və oğlu Məhəmməd Cahan Pəhləvan dəfn edilmişdir. Təəsüflər olsun ki, sərdabədəki məzarların baş daşları vaxtilə oğurlanıb aparıldığı üçün, bu haqda dəqiq məlumat əldə etmək mümkün olmamışdır.

Aparılan tətqiqatlar göstərir ki, Naxçıvan memarlıq məktəbinin parlaq nümunəsi olan Möminə Xatun türbəsi dəfələrlə təhrif olunduğu üçün, abidənin davamlı olaraq araşdırılması mütləqdir.



**Açıq səma altında muzey**

Tətqiqatlar apardığım zaman mənə dəstək olan  Nizami Əliyev, Gülnarə Qəmbərova, Qadir Əliyev, Musa Quliyeva təşəkkür edirəm. Çünki tarixi abidələrini mənə tanıdan və sevdirən məhz bu inslar oldu. Gulnarə xanımın məqalələrimi oxuduğum zaman Naxçıvan memarlığının necə gizli və sirli aləm olduğumu anladım. Bütün araşdırmalarımdan və tətqiqatlarım tək bir fikirə gəldim – Naxçıvan bəşəriyyətin beşiyidir.

## Ədəbiyyat


1. Şərq qapısı qazeti. fevralın 14: 2014
2. C. Qiyasi – Nizami dövrünün memarlıq abidələri, Bakı, İşıq nəşriyyatı, 1991, səh 98.
3. Ayvazian, Argam. 1988. The Historical Monuments of Nakhichevan. Detroit: Wayne State University Press, 90-92



РЕЗЮМЕ

Айсель Гусейнова

**"Нахчыван-Колыбель Человечества"**

Нахчыванской школа архитектуры всегда удавалось привлечь к себе внимание. В качестве примера можно сказать про Мавзолей Момина Хатун, могила сына Юсифа Гусейр, Гарабаглар и.т.г. Мавзолей Момина Хатун всегда считался символом в Нахчыване. Но в течение многих лет хотели уничтожить памятник. Но не смогли.

Ордубад старейших населенных пунктов в мире. Горы Гемикайа, Пловдаг, остатки города Сумбатан, Хараба Гилан, Аза, Айлис предвестник старейших памятников в этом районе.



**Ключевые слова:** Нахчиыан, Ордубад, мавзолей Момина Хатун.



Summary

Aysel Huseynova

**"Nakhchivan-The Cradle of Humankind"**

Nakhchivan school of architecture has always managed to attract attention. As an example we can say about the Mausoleum of Momina Khatun tomb of the son of Yusif Guseyr, Garabaglar. Momina Khatun Mausoleum has always been considered a symbol of Nakhchivan. For many years wanted to destroy the monument. But they could not.

Ordubad oldest settlements in the world. Mountain Gemikaya, Plovdag, remnants of the city Sumbatan, Kharaba Gilan, Aza, Aylis harbinger of the oldest monuments in the area.

**Keyword:** Nakhchivan, Ordubad, Mausoleum of Momina Khatun